# MÜSTƏQİL AZƏRBAYCANIN MÖHKƏMLƏNDİRİLMƏSİ VƏ İNKİŞAFINDA "HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI"

**Bahar Hüseyn**

*BDU, Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müəllimi*

**Xülasə**

*1993-cü ilin iyununda Heydər Əliyevin Respublikada hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda kəskin dönüş baş verdi. Müstəqil Azərbaycan ildən-ilə güclənir, sürətlə inkişaf edir. Belə ki, 1994-cü il sentyabrın 20-də dünyanın tanınmış neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalandı. «Əsrin müqaviləsi»ndən sonra inkişaf etmiş dünya dövlətlərinin Azərbaycana marağı artdı, iqtisadiyyata, xüsusilə də neft sektoruna çoxmilyardlı xarici investisiyaların axını başlandı. Heydər Əliyev demişdir: "Neft strategiyasının uğurla həyata keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin əsas qarantlarından biridir". Azərbaycanın hazırki, yüksək iqtisadi inkişafı, ilk növbədə Heydər Əliyevin hazırladığı neft strategiyasının nəticəsidir.*

***Açar sözlər:*** *Heydər Əliyev, əsrin müqaviləsi, neft şirkətləri, Azərbaycan inkişafı, neft strategiyası.*

1993-cü ilin iyununda Heydər Əliyevin Respublikada hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda kəskin dönüş baş verdi. Belə ki, dərin mənəvi, mədəni, elmi iqtisadi potensiala, əlverişli coğrafi-siyasi mövqeyə malik Azərbaycan həm də özünün zəngin təbii sərvətləri ilə məşhurdur. Bu sərvətlər içərisində neft əsas yer tutur. Xəzər dənizi dünyada (Fars körfəzi və Sibirdən sonra) ən böyük neftt hövzəsidir və onun ekvatoriyasında olan 200-dən çox neft yatağının 145-ə qədəri dənizin Azərbaycan sektorundadır. 1782-ci ildə Bakıda olmuş məşhur ingilis səyyahı Forster "Bakıda neft" adlı əsərində Bakının qara neftini şah və taca bərabər xəzinə adlandırmışdır. 1

Müasir dövrdə neft əsas enerji mənbəyi olduğu üçün neftlə zəngin ölkələr öz daxili və xarici siyasətini neftlə tənzimləyir. Neftlə zəngin olan belə ölkələrdən biri sayılan Azərbaycanın 1994-cü ilə qədər neft strategiyası olmamışdır.

Amerikanın məşhur "Vaşinqton Post" qazeti 1997-ci ilin sentyabrında yazmışdı: "1900-cu ildən dünyada aparıcı neft istehsalçısı olan Azərbaycan, yenə də əfsanəvi sərvətlər məmləkəti hesab edilir". 2

Bütün dünyada neftin çıxarılması və hasil edilmiş neftin emalı və təcrübəsi məhz Azərbaycanda başlamışdır. Belə ki, neftin istehsalı artdıqca, emal sənayesi də yaranıb formalaşırdı. Devid Vurvord 2001-ci ilin avqustunda etdiyi çıxışların birində demişdir: " Dünyanın öz enerji ehyiyatlarına görə arxalanmaqda davam etdiyi bir sənayeni 150 il bundan öncə yaratmış bir ölkə kimi Azərbaycan heç də təsadüfü deyildir ki, beynəlxalq enerji miqyasında həlledici rol oynamaq ərəfəsindədir". 3

Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən isə Heydər Əliyev olmuşdur.

Müstəqil Azərbaycan ildən-ilə güclənir, sürətlə inkişaf edir. Müstəqilliyinin ilk illərində Azərbaycan dövləti bir çox siyasi və iqtisadi problemlərlə üzləşib. Yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra ölkənin inkişafında dönüş yarandı. Belə ki, uzun müddət ərzində Sovetlər birliyinin tərkibində olduğundan Azərbaycan iqtisadiyyatı vahid məkan çərçivəsində inkişaf edirdi. Sovetlər ittifaqının dağılması ilə planlı sosialist sistemində birgə fəaliyyət göstərmiş müttəfiq respublikalar arasında dezinteqrasiya prosesləri başlandı. Dövlət müstəqilliyini əldə etmiş ölkələrdə, o cümlədən Azərbaycanda yeni bir tarixi mərhələnin - keçid dövrünün əsası qoyuldu. 4

Keçid dövrünün ilk illərində müharibə, qeyri-sabit siyasi şərait və tənəzzüllə üzləşmiş Azərbaycan digər ölkələrə nisbətən daha ağır vəziyyətdə idi. Ermənistan dövləti tərəfindən aparılan təcavüzkar siyasətin nəticəsində bir milyondan artıq azərbaycanlı doğma yurdlarından qovularaq qaçqın və məcburi köçkün şəraitində yaşamağa məhkum edilmişdi. Azərbaycanın hərbi təcavüz, daxili çəkişmələr, iqtisadi tənəzzüllə üzləşdiyi bir vaxtda iqtisadiyyatın bütün





göstəriciləri neqativ meyillərlə xarakterizə olunurdu. Belə ki, 1991-1993-cü illərdə ölkə iqtisadiyyatında ÜDM-in istehsalında artım əvəzinə hər il azalma müşahidə edilirdi. İstehsal sahələrinin sıradan çıxması nəticəsində işsizliyin səviyyəsi xeyli yüksəlmişdi. Həmin dövrdə maliyyə-bank sistemi iflic vəziyyətdə idi. Tədavülə buraxılmış milli valyuta - manat qiymətdən düşmüşdü. Ölkədə inflyasiya özünün pik səviyyəsinə çatmış, iqtisadiyyata xarici sərmayə qoyuluşları tamamilə dayanmışdı. 5

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu tarixi şəxsiyyətin yorulmaz fəaliyyəti nəticəsində qısa müddət ərzində siyasi və iqtisadi sabitləşmə təmin edildi, Azərbaycan iqtisadiyyatının yenidən qurulması, dayanıqlı inkişaf mərhələsi başlandı. Bundan sonra ölkənin daxili imkanlarının səfərbər olunması və zəngin neft ehtiyatlarından Azərbaycan xalqının rifahı naminə səmərəli istifadə edilməsini təmin etmək məqsədilə Milli Neft Strategiyası məharətlə həyata keçirilməyə başlandı. Bu strategiya xarici kapitalın və təcrübənin cəlb edilməsi, çoxvariantlı nəqliyyat sisteminin yaradılması, gəlirlərin toplanması və səmərəli idarə edilməsi kimi üç əsas hissədən ibarət idi.

Ən əvvəl xarici kapitalın, ölkənin karbohidrogen ehtiyatlarının işlənməsi üçün böyük təcrübəyə və geniş maliyyə imkanlarına malik olan beynəlxalq neft şirkətlərinin Azərbaycana cəlb olunması lazım idi. H. Əliyev Azərbaycanın xarici siyasət kursunu köklü şəkildə işləyib yenidən qurdu, ölkəmizin dünya dövlətləri arasında layiqli yer tutur tutması üçün neft faktorunu diplomatik silaha çevirdi. H. Əliyev tarixçi idi. O, I və II dünya müharibələri dövründə neftin nə dərəcədə əsas rol oynadığını gözəl bilirdi. Yusif Məmmədəliyevin donmayan benzin ixtirası ona dünya şöhrəti qazandırdı və Bakını yer kürəsinin neft paytaxtı kimi məşhurlaşdırdı H. Əliyevin "neft diplomatiyası "çox tezliklə öz bəhrəsini verdi, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı, ardınca "Bakı-Tiflis-Ceyhan "neft kəmərinin çəkilişi reallaşdı, xarici kapitalın Azərbaycana axını ölkəmizin sosial-iqtisadi inkişafına təkan verdi. Azərbaycan sənayesinə milyonlar yatırıldı. İnkişaf etmiş ölkələrin nəhəng şirkətləri ARDNŞ-lə neft müqavilələri bağlayaraq Azərbaycan neftinin hasilatı və ixracı sahəsində payçı oldular. Neft faktoru ilə yanaşı Azərbaycanın geosiyasi baxımdan sərbəstliyi, Böyük İpək yolunun üzərində yerləşməsi xüsusi əhəmiyyət kəsb edirdi və zamanın Azərbaycanın xeyrinə işləməsinə şərait yaratmışdır. 6

1994-cü il sentyabrın 20-də dünyanın tanınmış neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalandı. Nüfuzlu neft şirkətləri ilə iş birliyinin qurulması Azərbaycan dövlətinin siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsinə, beynəlxalq aləmdə mövqeyinin güclənməsinə şərait yaratdı. "Əsrin müqaviləsi" həyata vəsiqə qazandıqdan sonra görülmüş işlərin nəticəsidir ki, indiyədək "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan təxminən 38 milyard kubmetr qaz hasil edilmiş, bunun 16 milyard 651,8 milyon kubmetri Azərbaycan dövlətinə təhvil verilmişdir. Ümumilikdə isə 15 ildə Azərbaycanda təxminən 135,9 milyard kubmetr qaz hasil olunmuşdur. 7

"Əsrin müqaviləsi" mahiyyətcə iqtisadi xarakter daşısa da, onun siyasi əhəmiyyəti də eyni dərəcədə vacibdir. 1994-cü ilin yanvarında dövlət başçısı kimi ABŞ-ın "AMOKO" şirkətinin rəhbərlərini qəbul edərkən bu amilə toxunan ulu öndər Heydər Əliyev müqavilənin gənc Azərbaycan üçün nə dərəcədə taleyüklü məsələ olduğunu bildirir: "Biz tam əmin olmalıyıq ki, xalqımız öz təbii sərvətlərindən maksimum səmərə götürəcəkdir. Digər tərəfdən, bağlayacağımız müqavilə xaricdə Azərbaycanın siyasi mövqelərinin möhkəmlənməsinə imkan yaratmalıdır". 8 İstanbulun "Çırağan sarayı"nda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə respublikalarının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş"in, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Gürcüstan və Qazaxıstan respublikaları arasında "İstanbul bəyannaməsi"nin, Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamə"nin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası. Gürcüstan və Türkiyə Respublikası, arasında "Qarşılıqlı anlaşma memorandumu"nun imzalanması mərasimi oldu. 8 Bu və digər sənədlərin inzalanmasının respublikada neft sənayesinin inkişafı üçün böyük əhəmiyyəti oldu. Bir faktı da qeyd edək ki, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin uzunluğu 1730 km, diametri 1067 mm-dir. O cümlədən əsas ixrac boru kəmərinin Azərbaycan ərazisi üzrə uzunluğu 468 km, Gürcüstan ərazisi üzrə 225 km, Türkiyə ərazisi üzrə 1037 km-dir. Əsas ixrac boru kəmərinin tikintisinə sərf olunan məbləğ – 4 mlyard ABŞ dollarıdır, o cümlədən Türkiyə ərazisi üzrə 1,4 milyard ABŞ dolları, Azərbaycan ərazisi üzrə 800 milyon ABŞ dolları, Gürcüstan ərazisi üzrə 500 milyon ABŞ dollarıdır. Tranzitdən gələn gəlirin qalan hissəsi isə əsaslı xərclərin ödənilməsi, nəqliyyat xərcləri, boru kəmərinin işlək vəziyyətdə saxlanması, təmir işləri və s. üçün nəzərdə tutulmuşdur.

«Əsrin müqaviləsi»ndən sonra inkişaf etmiş dünya dövlətlərinin Azərbaycana marağı artdı, iqtisadiyyata, xüsusilə də neft sektoruna çoxmilyardlı xarici investisiyaların axını başlandı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə neft sazişlərində iştirak edən şirkətlərlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı.

Amerikanın məşhur siyasətçisi - professor Zbiqnev Bjezinski "Böyük şahmat taxtası" (1997) adlı kitabında yazmışdır. "Azərbaycan böyük enerji ehtiyatları ilə, həm də qeosiyası planda açar əhəmiyyətlidir. Rusiyanın nəzarət etdiyi ərazilərdən yan keçərək çəkilən neft kəmərləri vasitəsilə Qərb bazarları ilə birləşən müstəqil Azərbaycan həm də enerjiyə tələbatı olan öncül dünya iqtisadiyyatının enerji cəhətdən zəngin Orta Asiya respublikalarına yol tapması üçün böyük magistraldır". 9





Xəzərin Azərbaycan sektorunda neft və qaz ehtiyatlarının istismarı ildən-ilə genişləndi və ölkəmiz özünün enerji təhlükəsizliyini tam təmin etdi. Dünyanın enerji təminatında da Azərbaycanın xüsusi çəkisi və strateji əhəmiyyəti artdı. «Şahdəniz» yatağında qazın istismarının genişlənməsi ilə əlaqədar Azərbaycan özünün daxili tələbatını tam ödəməklə bərabər, bu mavi yanacaq növünü beynəlxalq bazarlara ixrac etmək imkanı qazandı.

Bunlar çoxvariantlı nəql sisteminin yaradılmasını gündəmə gətirdi. Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın irihəcmli nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edirdi. Belə ki, neft strategiyasının həyata keçirilməsinin ilk illərində Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri yenidən quruldu, daha sonra neftin və qazın etibarlı və irimiqyaslı ixracını təmin etmək məqsədilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri tikilərək istismara verildi. Həmin kəmərlərin işə düşməsi Azərbaycan, Gürcüstan, Türkiyə və Mərkəzi Asiya regionu arasında idxal-ixrac münasibətlərinin və iqtisadi əlaqələrin inkişafına təkan verdi. Qaz nəqliyyat infrastrukturunun, xüsusilə də Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin fəaliyyəti ilə əlaqədar Azərbaycan Qərbin mühüm qaz ixracatçısına və qlobal enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrildi. Azərbaycanın enerji təhlükəsizliyi təmin olundu, dünya enerji təchizatında xüsusi çəkisi artdı.

Neft və qaz satışından əldə olunan gəlirlərin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin müxtəlif sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsi məqsədilə 1999-cu ildə Heydər Əliyevin qərarı ilə Dövlət Neft Fondu yaradıldı. Yaradılarkən 271 milyon ABŞ dollarına bərabər olan Neft Fondunun aktivlərinin həcmi on il sonra 15 milyard ABŞ dollarını keçmişdir. 10 Dövlət Neft Fondunun yaradılması neft gəlirlərinin idarə edilməsinin ən yaxşı təcrübəsidir və bu təcrübə Azərbaycanda tətbiq edildi. Azərbaycanda Neft Fondu yaradılarkən neft gəlirlərinin gələcək nəsillər üçün toplanması ilə yanaşı, bugünkü nəsillərin problemlərinin həlli üçün də istifadə edilməsini nəzərdə tutan model seçilmişdir.

Milli neft strategiyasının uğurla reallaşması digər sahələrin inkişafına güclü təkan verdi. Azərbaycanın sosial-iqtisadi inkişafını sürətləndirmək məqsədilə ölkədə bir sıra mühüm əhəmiyyətə malik və strateji mahiyyət kəsb edən addımlar atılmış, genişmiqyaslı sosial-iqtisadi tədbirlər planı hazırlanmışdır. Qısa müddət ərzində çoxsaylı dövlət proqramları qəbul edilmiş, infrastruktur sahələrin, sahibkarlığın, ölkədə işgüzar mühitin inkişaf etdirilməsi və məşğulluğun artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

İlham Əliyev xalqın istəyi ilə Azərbaycan Prezidenti seçilməsi Heydər Əliyevin yeni neft strategiyasının məntiqi sonluğa yetişməsini uğurla təmin etmişdir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli fərmanı ilə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə

Dövlət Proqramı (2004-2008-ci illər)» qəbul edildi. Bu proqramın həyata keçirilməsi bölgələrin inkişafına, o cümlədən infrastruktur sahələrin genişlənməsinə, sosial obyektlərin və yeni iş yerlərinin yaradılmasına, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına təkan verdi.

Cənab İlham Əliyev neft strategiyasında varisliyi inamla təmin edərək BTC-nin praktik şəkildə gerçəkləşməsinə nail oldu. Beləliklə, kimlərinsə bir vaxtlar əfsanə hesab etdiyi bu strateji layihə "Əsrin müqaviləsi"nin imzalanmasının 12-ci ildönümü ərəfəsində gerçəkliyə çevrildi. 11

2005-ci il mayın 25-də kəmərin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirildi. 2006-cı il mayın 28-də Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatması isə respublikamız üçün rəmzi səciyyə daşıyan mühüm hadisəyə çevrildi. Nəhayət, 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan terminalında hər üç dövlətin prezidentlərinin iştirakı ilə BTC-nin tam istismara verilməsi ilə bağlı təntənəli tədbir təşkil olundu. 12

Heydər Əliyev demişdir: "Neft strategiyasının uğurla həyata keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin əsas qarantlarından biridir". Azərbaycanın hazırki, yüksək iqtisadi inkişafı, ilk növbədə Heydər Əliyevin hazırladığı neft strategiyasının nəticəsidir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. 1995-ci ildə London.
2. "Xalq" qəzeti 25 sentyabr 1997 il.
3. "Azərbaycan" qəzeti, 31 avqust, 2001.
4. Əliyev H. Azərbayan nefti dünya siyasətində. Bakı, IV kitab. 1997,478 s.
5. Dövlət Neft Fondunun prezidenti Şahmar Mövsümov, Azərbaycan. - 2010. - 9 may. s. 8.
6. Əliyev H. Azərbayan nefti dünya siyastində, Beşinci kitab. Bakı, 1997, 327 s.
7. Atakişiyev Müşfiq. Azərbaycanın neft strategiyasının milli iqtisadiyyatın inkişafında rolu. Məqalə. "Vergi jurnalı", 5(119) 2014 89
8. Əliyev A. Ə. , Şəkərəliyev A. Ş. Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadiyyatı.
9. Zbiqnev Bjezinski. Böyük şahmat taxtası. M. , 2003, s. 56-62 (rus dilindən tərcümə).
10. https://president. az/
11. Abdullayev Z. S. , Abbasov A. B. Neft sənayesinin iqtisadiyyatı və idarə edilməsi. Bakı. 2000.
12. http:files. preslib. azsitelOilgl3. pdf Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası.






**Bahar Huseyn**

## «Oil strategy of Heydar Aliyev» in the strengthening and development of independent Azerbaijan.

### Sammary


*In June 1993, with Heydar Aliyev's return to power in the Republic, a sharp turn occurred in the liberation of Azerbaijan. Independent Azerbaijan is getting stronger and developing rapidly every year. Thus, on September 20, 1994, an agreement was signed with the well-known oil companies of the world on the joint development of «Azeri», «Chirag» and «Guneshli» fields in the Azerbaijani sector of the Caspian Sea and the distribution of production. After the «Contract of the Century», the interest of the developed countries in Azerbaijan increased, and the flow of multi-billion dollar foreign investments in the economy, especially in the oil sector, began. Heydar Aliyev said: «The successful implementation of the oil strategy is one of the main guarantors of the state independence of Azerbaijan. « The current high economic development of Azerbaijan is primarily the result of the oil strategy developed by Heydar Aliyev.*


***Key words:** Heydar Aliyev, the contract of the century, oil companies, Azerbaijan's development, oil strategy*

**Бахар Гусейн**

## «Нефтяная стратегия Гейдара Алиева» в укреплении и развитии независимого Азербайджана.

### Резюме


*В июне 1993 года, с возвращением Гейдара Алиева к власти в республике, произошел крутой поворот в освобождении Азербайджана. Независимый Азербайджан с каждым годом становится сильнее и стремительно развивается. Так, 20 сентября 1994 года было подписано соглашение с известными нефтяными компаниями мира о совместной разработке месторождений «Азери», «Чираг» и «Гюнешли» в азербайджанском секторе Каспийского моря и распределении производства. После «Контракта века» интерес развитых стран к Азербайджану возрос, начался приток многомиллиардных иностранных инвестиций в экономику, особенно в нефтяной сектор. Гейдар Алиев сказал: «Успешная реализация нефтяной стратегии является одним из главных гарантов государственной независимости Азербайджана». Нынешнее высокое экономическое развитие Азербайджана в первую очередь является результатом нефтяной стратегии, разработанной Гейдаром Алиевым.*


***Ключевые слова:** Гейдар Алиев, контракт века, нефтяные компании, развитие Азербайджана, нефтяная стратегия.*